# "Türk dünyasından Şuşaya – Şuşadan Türk dünyasına" kitabının Özbəkistanda təqdimatı



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyinin həyata keçirdiyi "Türk dünyasından Şuşaya – Şuşadan Türk dünyasına" adlı layihə çərçivəsində eyni adlı nəşrin təqdimat mərasimi keçirilib.**

Tədbirdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, ali məktəblərin professor-müəllim heyəti, soydaşlarımız, özbək xalqının nümayəndələri, tələbələr iştirak ediblər.

Tədbiri mərkəzin direktoru Samir Abbasov Şuşanın tariximizdəki, mədəniyyətimizdəki rolunu xüsusi vurğulayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa haqqındakı çıxışlarından sitat gətirib: "Şuşa Azərbaycan üçün həm qürur, milli mənlik, həm də mədəniyyət, incəsənət və tarixdir".

S.Abbasov qədim tarixi köklərə və geniş coğrafiyaya malik Türk mədəniyyətinin artıq Şuşada birləşdiyini, bu füsunkar şəhərin Türk xalqları arasında birləşdirici bir mədəni körpü missiyasını öz üzərinə götürdüyünü bildirib. Direktor TÜRKSOY tərəfindən 2023-cü ildə Azərbaycan mədəniyyət beşiyi qədim Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan olunduğunu vurğulayıb.

O, rəhbərlik etdiyi təşkilat tərəfindən "Şuşa ili" ilə bağlı həyata keçirilən layihələr barədə danışıb, bildirib ki, "Türk dünyasından Şuşaya – Şuşadan Türk dünyasına" adlı nəşrin təqdimatı TÜRKSOY tərəfindən Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan olunması ilə əlaqədar Özbəkistanda keçirilən ilk tədbirdir. O, nəşrdə Türk dünyasını əhatə edən 17 şair və yazıçının Şuşa ilə bağlı şeir və hekayələrin toplandığını qeyd edib.

Özbəkistan Yazıçılar İttifaqı sədrinin müavini Qayrat Məcid Şuşaya səfər təəssüratlarından danışıb, Şuşanın qədim tarixə, zəngin mədəniyyətə, poeziyaya və təkrarsız ənənələrə malik nadir şəhər olduğunu diqqətə çatdırıb. O, bu qədim şəhərin hər məhəlləsinin ayrıca məscidi, bulağı, hamamı olduğunu, Şuşanın şairlər, xanəndələr, tanınmış mədəniyyət, incəsənət xadimlərinin vətəni olduğunu qeyd edib.

Özbəkistan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun rektoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Eldor Şermanov çıxışında bu qəbildən tədbirlərin Azərbaycan–Özbəkistan mədəni-ədəbi əlaqələrinin əhəmiyyətindən söz açaraq, bu məsələdə əsas rol oynayan Azərbaycan Mədəniyyət Mərkəzinin kollektivinə təşəkkür edib.




Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri, professor Nurbay Cabbarov isə çıxışında Şuşanın bütün Türk dünyasının qeyrəti, namusu olduğunu və Azərbaycanın Şuşanı azad edərək bu dəyərə sahib çıxmasını Türk dünyasında böyük zəfər və qürurlu hadisə kimi qəbul edildiyini bildirib.

Professor Səadət Muxammedova, dosent Gülbahar Aşurova, nəşrdə hekayəsi olan Nərgiz Əsədova və başqaları "Türk dünyasından Şuşaya – Şuşadan Türk dünyasına" kitabının əhəmiyyəti haqqında danışıblar. Onlar türk dünyasının daha da yaxınlaşdırılması istiqamətində belə nəşrlərin əhəmiyyətini vurğulayıblar.

Azərbaycan Respublikası Gənclər Fondunun nümayəndəsi Zülfiyyə Yaqubova çıxış edərək Gənclər Fondunun fəaliyyəti barədə geniş məlumat verdikdən sonra bu layihənin də Dünya Gənc Türk Yazarlar Birliyi ilə işbirliyi nəticəsində ərsəyə gəldiyini qeyd edib.

Layihənin rəhbəri, Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı, şair İntiqam Yaşar təqdimat mərasiminin təşkilinə görə AMM rəhbərliyinə minnətdarlıq edib, belə nəşrlərin bütün türk dünyasında çap olunmasının əhəmiyyətindən danışıb.

Sonda bir qrup ziyalıya Azərbaycan Gənclər Fondu və Dünya Gənc Türk Yazarlar Birliyinin Fəxri fərmanları verilib.

**Qulu KAZIMOV,**
**Daşkənd**